MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov 286

FOTOLAR 290

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ

Əhməd Niyazov
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan İlahiyyat İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.348

Giriş. Ramazan mədəniyyəti yalnız oruc ibadəti ilə məhdudlaşmayıb, paylaşma, səbr və mərhəmət kimi əxlaqi dəyərlərin gündəlik həyata kökləndiyi bir ictimai məktəb rolunu oynayır. Bu ayda iftar süfrələri ailə və qonşuluq münasibətlərini möhkəmləndirir, məscidlərdə oxunan Quran və təravih namazları cəmiyyətin mənəvi birlik şüurunu gücləndirirdi. Beləliklə, Ramazan həm fərdi ibadətin dərinləşdiyi, həm də mədəni və sosial həmrəyliyin canlandığı xüsusi bir zaman kəsiyidir. Ənənəmizdə bu ay dini həyatın ən önəmli yeri hesab edilirdi. Bu ay gəlmədən xüsusi hazırlıqlar başlayır, yeni bir mənəvi iqlimin bərəkətini umaraq ondan ən gözəl istifadə yollarını axtarır, Quran ayı hesab edilən bu zamanı ən gözəl ibadətlərlə keçirəcəklərini səbirsizliklə gözləyərdilər.

Ramazan ayının digər bir əhəmiyyət kəsb edən hissəsi məhz, iftar mədəniyyətidir. İftar süfrəsi Ramazan ayında yalnız orucun açıldığı an deyil, eyni zamanda paylaşma və qardaşlıq ruhunun təcəssüm etdiyi müqəddəs bir məclisdir. Bu süfrələrdə zənginlə kasıbın, böyük ilə kiçiyin bir araya gəlməsi cəmiyyət daxilində sosial bərabərlik və ünsiyyət mədəniyyətini möhkəmləndirir. Dini baxımdan iftar, gün boyu edilən səbr və ibadətin şükürlə tamamlanması mənasını daşıyır və möminin mənəvi tərbiyəsində mühüm yer tutur. Həm fərdi, həm də ictimai ölçüdə iftar, yardımlaşma və sədəqə anlayışlarını daha görünən və canlı hala gətirir. Beləliklə, iftar mərasimi Ramazan ayının həm dini mahiyyətini, həm də sosial funksiyasını birləşdirən mühüm bir mədəni ənənə kimi formalaşmışdır.


Ənənəmizdə Ramazan anlayışı. Ənənəmizdə Ramazan ayı təkcə ibadət dövrü deyil, eyni zamanda zəngin ədəbi, mədəni və mənəvi irsin formalaşdığı xüsusi bir zaman kimi dəyərləndirilmişdir. Bu ay münasibətilə yazılan "mərhaba" və "əlvida" şeirləri Ramazanın xalqın ruh dünyasında necə dərin iz buraxdığını göstərən mühüm nümunələrdir [1]. Belə əsərlər vasitəsilə Ramazan sevinci, həsrəti və müqəddəsliyi nəsildən-nəslə ötürülən bir mədəni yaddaşa çevrilmişdir. "Mərhaba ya şəhri Ramazan, Mərhaba!" qəsidələri evlərdən eşidilən ən gözəl səslər idi. Bu səs ən böyük ibadət ayı, ən fəzilətli bir mövsümün xəbərçisi olardı. Kiçik-böyük, yaşlı-gənc hər kəsin ümidlə gözlədikləri mübarək ay gələndə toplumda geyri-adi bir ab-hava təzahür edir, maddə ilə məna birləşərək öz rəhmət əsintilərini hər tərəfdə hiss etdirirdi.

Söz ustaları gözlədikləri bir qonaq kimi ayı qarşılayan "Mərhaba ya Şəhri-Ramazan" şeirləri yazır, bu möhtəvada yazılanları da köçürərək könüldən-könülə səsləndirərdilər. Həmçinin ayın axırına gələndə isə, "Əlvəda ya Şəhri-Ramazan" deyərək vəda şeirlərini hüznlə oxuyardılar [8, 0045].

Mübarək ramazani-şərif üçün yazılan şeirlərdən biri aşağıdakı kimidir.

Sən gəlincə cümlə aləm nur olur,
Ayan olur camilər məmur olur.
Sənə izzət etməyənlər xar olur,
Əlvida ya Şəhri-Ramazan əlvida!
Sən gəldin etdin kəlami,
Sən gedende bizdən eylə salamı.
Əcəl aman verib birdəxi görsəm səni
Əlvida ya Şəhri Ramazan! Əlvida!

Bölgəyə xas ənənələrdən “Kəhf cüzü” yazaraq vəqf edilməsinə bu ayda daha çox rastlamaq mümkündür [1]. Həmin əsərlərin vəqf və hədiyyə edildiyinə dair yazılarda bu aya hörmət mənasında həmişə “Mübarək ramazani-şərif” kimi qeyd edilirdi. Şahzədə xanımın 1878-ci ildə Çobankol məscidinə vəqf etdiyi “kəhfi-şərif” bunlardan biridir. Onun vəqfiyyə yazısında deyilir: “Gaffarın əfvini və öldüyümüzdə (səvabının) çatmasını ümid edərək bu Kəhfi-Kərimi Çobankol məscidi üçün Çobankollu Ramazanın qızı Şahzadə vəqf etdi. “Elə isə səvaba yarışmaq istəyənlər bunun üçün yarışsınlar”[1]. “Ey bu cüzə nəzər salan şəxs! Bunu yazan üçün Allahdan mərhəmət dilə. Oxuyanlar üçün bağışlanma dilə. Bu cüzlə özün üçün də xeyir tələb et. Ondan sonra da sahibi üçün Allahdan əfv dilə! Bu yazı, Allahın mübarək ayı Ramazani-şərifdə,1298-ci ildə yazılmışdır”[2] [8, 6467].



Keçmişdən bu günədək hələ də davam edən adətlərdəndir ki, ramazan ayı yurda gələn bahar təki könüllərin hüzura qovuşacağı ay kimi gözlənilirdi. İldə bir dəfə gələn bu ayda bəşəri dəyərlər həssaslaşır, qəlblər paklıq, saflıq, hüzur və təskinlik taparaq bərəkətlənirdi. Alimlər bu aya məxsus ən gözəl xütbələrini hazırlayıb söyləyir, insanları bu Quran ayında ayıq və sayıq olmağa səsləyirdi. Vəz və söhbətlərini ramazan ayına həsr edərək könüllərdə bu aya qarşı böyük bir həvəs oyadır, bu fürsət ayını səvab və fəzilətlərlə dolu bir ay kimi yaşamalarını tövsiyə edirdilər. Bölgəyə xas ramazan mədəniyyətini əks etdirməsi və yeni nəslin bu ənənəni davam etdirməsi baxımından həmin xütbələrdən birini burada nümunə vermək əhəmiyyət kəsb edir. Xütbələr adətən ramazan ayının ilk cümə günü tərtib edilir və cümə xütbəsinin giriş (birinci) hissəsi kimi oxunurdu.

Ramazan ayının girməsi ilə ariflərin qəlblərini təzyin edən (bəzəyən), ramazan ayının gəlişi ilə də sadiqlərin könlünü nurlandıran, ramazan ayının hilalı ilə onu sevənlərin ruhlarına sərinlik verən, ramazan ayında Rəsulu Məhəmmədə (haq ilə batili ayıran kitabı) Furqanı verən Allaha həmd olsun!

---

[1] Mutaffifin, 83/26.

[2] ”قد قفت هذ الكهف الكريم لمسجد وبان كول شاهزده بنت رمضان لچوبان كوليّ. رجاء عفو لغفّار ليصل حيث نموت ' في ذٰلِكَ فَلْيَتَنَافَسِ لْمُتَنَافِسُونَ '

يا ناظر فيه سل بالله مرحمة
علي لمحرر ستغفر لقارئه ،
طلب لنفسك من خير يريد بها
من بعد ذلك غفر نا لصاحبه.
قد تم في شهر الله لمبارك رمضان ، سنة لف ماتين سبعة تسعين، سنة١٢٩٨.

Onun ilk on günü ravza və rizvandır. Orta on günlüyü məğfirət və ğufrandır. Son on günlüyü isə nirandan (oddan) nəcatdır, azad olmaqdır.

Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur, o təkdir və şəriki yoxdur. Şəhadət edirəm ki, Məhəmməd onun qulu və rəsuludur ki, onu göndərmişdir. Sallallahu təala və səlləm ala rasulihi Məhəmməd və ala əlihi və əshabihi əcməin.

Ey Allahın bəndələri əvvəl özümə sonra sizə Allaha qarşı təqvalı olmağınızı tövsiyyə edirəm. Ona boyun əyin və ondan çəkinin. Allah ondan çəkinənlərlə və ihsan (yaxşılıq) sahibləri ilə bərabərdir, Ey insanlar! Sizin bu ayınız böyük bir ay, bərəkətli bir vaxt və xoşbəxt və mübarək saatlardır!

Sənə salam olsun ey ramazan ayı! Dost və göndərilənlərin ayı, şəfaət və dualar ayı, itaət və ehsanlar ayına salam olsun!

Sənə salam olsun ey ramazan ayı! Namaz və oruc ayı, zəkat və dirlik ayı, sədəqələr və səna ayına salam olsun!

Sənə salam olsun ey ramazan ayı! Gözlərin yuxusuz qaldığı, qarınların büzüşdüyü (turşuduğu), şeytanların bağlandığı aya salam olsun!

Sənə salam olsun ey ramazan ayı! Qəndillərin ziyası, ibadət və təravehlərlə məscidlərin bəzəndiyi aya salam olsun!

Sənə salam olsun ey ramazan ayı! Allahın bəndələrinin üsyandan çəkindiyi, rahmana yaxınlaşdığı, itaətə sığındıqları aya salam olsun!

Sənə salam olsun ey ramazan ayı! Allah sübhanə və cəllə zikruhu və kibriyauhu təbarək və təqaddəs həzrətlərinin sözüdür: “İnsanlara doğru yol göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) ramazan ayında nazil edilmişdir” (Bəqərə, 185).

Allah nəfslərimizin şərrindən, əməllərimizin və sözlərimizin pis olanından bizi qorusun! Bizi yalnız Allaha sığındırsın! Özüm və bütün möminlər üçün istiğfar diləyirəm! Rəhm və mərhəmət sahibi Odur!)[3]

---

[3] أَلْحمدُ للَّهِ ٱلَّذي زَيَّنَ قُلُوبَ ٱلعارِفِينَ بِدُخولِ شَهْرِ رَمَضَان، نَوَرَ صُدُرَ ٱلصَادِقِينَ بِقُدُومِ شَهْرِ رَمَضَان

تَزَحزَحَ أَلْمُحِبِّينَ بِهِلالِ شَهْرِ رَمَضَان، أَنْزَلَ ٱلفُرْقانَ علي رَسُولِهِ مُحَمَّدٍ فِي شَهْرِ رَمَضَان

عَشْرَةٌ لاَّ لِ فِيهَا رَّ ضَةٌ رِضْوَانٌ، عَشْرَةٌ لأَّ سَطِ مَغْفِرَةٌ غُفْرَانٌ عَشْرَةٌ لأَخِيرِ فِيهَا نَجَاةٌ عِتْقٌ مِنَ لنِيرَانِ *أَشْهَدُ أَنْ لا إِلَـهَ إِلاَّ اللهُ*

حْدَهُ لا شَرِيكَ لَـهُ أَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ رَسولُـهُ أَرْسَلَه صَلَّي أَللَّهُ تَعَالَي سَلَّمَ عَلَي رَسُولِهِ مُحَمَّدٍ عَلَي اٰلِهِ أَصْحَابِهِ أَجْمَعِينْ.

أُصِيكُمْ عِبَادَ اللهِ إِيَّايَ أَنْ لاَ بِتَقْوَي أَللهِ تَعَالَي فَاتَّقُوهُ اَطِيعُوهُ إِنَّ اللهَ مَعَ لذينَ تَّقَوْ لذينَهُمْ مُحْسِنُونَ. أَيُّهَا لنَّاسُ إِنَّ شَهْرَكُمْ هَذَا شَهْرٌ عَظِيمٌ أَنْ قَاتٌ كَرِيمَةٌ سَاعَاتٌ مُبَارَكَةٌ مَيْمُونَةٌ.

أَلسَّلاَمُ عَلَيْكَ يَا شَهْرَ رَمَضَانَ سَلاَمٌ عَلَي شَهْرِ أَلرَّفِيقِ لْمُرْسَلاتِ شَهْرِ لشَّفِيعِ لدَّعَوَاتِ شَهْرِ لطَّاعَةِ لْحَسَنَاتِ .

أَلسَّلاَمُ عَلَيْكَ يَا شَهْرَ رَمَضَانَ سَلاَمٌ عَلَي شَهْرِ لصَّلاَةِ لصِّيَامِ شَهْرِ لزَّكَاةِ لْقِيَامِ شَهْرِ لصَّدَقَاتِ لثَّنَاءِ.

أَلسَّلاَمُ عَلَيْكَ يَا شَهْرَ رَمَضَانَ سَلاَمٌ عَلَي شَهْرِ لَّذِي سُهِرَتْ فِيهِ لْعُيُونُ خُمِصَتْ فِيهِ لبُطُونُ غُلِّلَتْ فِيهِ لشَّيَاطِينُ.

أَلسَّلاَمُ عَلَيْكَ يَا شَهْرَ رَمَضَانَ سَلاَمٌ عَلَي شَهْرِ لَّذِي زُيِّنَ فِيهِ لْمَسَاجِدُ بِضُرُوبِ لْقَنَادِلِ بِعِبَادَاتِ لتَّرَاوِيحِ.

أَلسَّلاَمُ عَلَيْكَ يَا شَهْرَ رَمَضَانَ سَلاَمٌ عَلَي شَهْرِ عِبَادَ اللهِ فَاجْتَنِبُوا مِنَ لْعِصْيَانْ تَقَرَّبُوا إِلَي لرَّحْمَنِ سْتَعِدُّ لِلطَّاعَاتِ.

أَلسَّلاَمُ عَلَيْكَ يَا شَهْرَ رَمَضَانَ قَوْلُهُ سُبْحَانَهُ جَلَّ ذِكْرُهُ كِبْرِيَاؤُهُ تَبَارَكَ تَعَالَي تَقَدَّسَ "شَهْرُ رَمَضَانَ لَّذِي أُنزِلَ فِيهِ لْقُرْآنُ هُدًى لِلنَّاسِ بَيِّنَاتٍ مِنَ لْهُدَى لْفُرْقَانِ " عَصَمَنَا اللهُ أَعَاذَنَا اللهُ إِيَّانَا مِنْ شُرُورِ أَنفُسِنَا مِنْ سَيِّئَاتِ قَبِيحِ أَعْمَالِنَا أَقُولُ لِنَا أَسْتَغْفِرُ اللهَ لِي لَكُمْ أَجْمَعِينَ هُوَ أَرْحَمُ لرَّاحِمِينَ.



Ramazan ayında iftarın dindəki yeri. Ramazan ayında müsəlmanlar, sadəcə, dua deyil, kasıbları sevindirməklə də Allaha (c.c.) şükür etdirlər. Bu ibadətin adı özü də bir sədəqə mahiyyəti daşıyan iftar ənənəsidir [2, s. 145]. Məhz bu kontekstdə məfhum olaraq iftarın bir mənası da "oruclu bir şəxsə oruc açdırmaq" yəni "başqa orucluya iftar vermək" mənasında istifadə edilmişdir [3, s. 517].

İslam prinsipləri baxımından oruc tutanlara iftar vermək xeyirli və savab əməllərdən sayılır. Buna görə kim bu ayda bir orucluya iftar etdirərsə, onun bu davranışı günahlarının bağışlanmasına, cəhənnəmdən qurtulmasına vəsilə olar. Bu haqda hədisdə belə deyilir: "Kim bir orucluya iftar verərsə, orculu qədər savab qazanar. Oruclunun savabından da heç nə əskilməz" [4, 45].

Ramazan ayını mənən zənginləşdirən bir çox xüsusiyyət vardır. İmsak, sahır, fitrə, təraveh kimi xüsusi ibadətlər bunlardan bəziləridir. Ancaq ruhani aləmdə bu ayın həm önəmi, həm də dəyərini bildirən sevinc anı kimi iftar vaxtının özünəməxsusluğu var. Məhz həmin məqam dini baxımdan möminin sevinc anı hesab edilir. Bu haqda hədisdə deyilir: "Oruclu mömin üçün sevinəcəyi iki an (vaxt) var: biri iftar etdiyi vaxt, digəri də orucunun savabı ilə Rəbbinə qovuşduğu vaxtdır." [5, 9; 6, 163].

İftar vaxtı möminin sevinc anı olması oruc tutanın gün boyu səbrlə gözlədiyi aclıq və susuzluqdan sonra, axşam azanı ilə birlikdə orucunu açdığı, mənəvi rahatlıq və şükür hissi ilə dolu olan o müqəddəs anı ifadə edir. Hədisi-şərifdə keçən bu ifadə ibadətin tamamlanmasının sevincini və Allahın razılığına qovuşma fərəhini simvollaşdırır. Həmçinin oruc tutanın iftarını açdığı zamankı sevincinin səbəbi–oruc ibadətini tamamlaması, orucu pozan şeylərdən uzaq qalması və bu ibadətin böyük savabını ümid etməsidir [7, s. 643].

Əbul-Həsən əs-Sindi (rəhmətullahi aleyh), oruc tutanın iftar anındakı sevincinin səbəbini izah edərkən, insanın həmin anda yemək və su kimi zəruri ehtiyacını aradan qaldıra bilməsi ilə hiss etdiyi sevincin də önəmli olduğunu vurğulayır. Ona görə iftar anından öncə ilahi əmrin yeməmək, içməmək kimi qadağalarına riayətlə nəfsin istəklərinə qarşı duran mömin artıq iftar saatında ilahi əmrə boyun əyməyin sevinci ilə mübah olan həmişəki davranışlara qayıtmasına sevinir.

İslam əxlaqında mühüm yer tutan ikram və infaq anlayışı, Peyğəmbərimizin (s.ə.s.) söz və tövsiyələrində də aydın şəkildə öz əksini tapmışdır. O, hər zaman səxavəti təşviq etmiş, xüsusilə Ramazan ayında oruc tutanlara iftar verilməsini ümmət üçün fəzilətli bir əməl kimi təqdim etmişdir. 'Ey insanlar! Süfrəniz hər kəsə açıq olsun, bol-bol ikram edin; beləliklə, salamatlıqla Cənnətə girərsiniz' buyurmaqla, ictimai həmrəyliyin və paylaşmanın dini-mənəvi əhəmiyyətinə diqqət çəkmişdir. Digər tərəfdən, 'yarım xurma ilə də olsa özünüzü oddan qoruyun' ifadəsi, infaqın miqdarından çox, niyyət və səmimiyyət əsasında dəyər qazandığını göstərir. Bu baxımdan iftar vermək, yalnız fiziki aclığı aradan qaldıran bir əməl deyil, eyni zamanda fərdlər arasında mərhəmət, ülfət və sosial məsuliyyət şüurunu möhkəmləndirən mənəvi bir ibadət formasıdır. [5, 9; 6, 66]. Uca Allah bəndələrinə edilən yaxşılığı, sanki Özünə edilmiş kimi dəyərləndirmiş və bu davranışa xüsusi mənəvi məna yükləmişdir.

İftar vaxtı oruc açanda xüsusi dualar edilir. Baxımdan, mömin üçün ən münasib niyyət şəkli axşamdan "sabah oruc tutmağa", "sabahkı günün orucuna", yaxud hər oruc açma anında sünnə əməl olan iftar duasına sabahkı oruca da niyyəti əlavə etməkdir [2, s. 143]. Bu, aşağıdakı kimidir: "Allahım! Sənin rizan üçün oruc tutdum, Sənin ruzinlə orucumu açdım, sənə inandım, Sənə güvəndim, sabahkı oruca da niyyət etdim. Mənim bu orucumu qəbul et və məni bağışla! Şübhəsiz, Sən hər şeyi eşidən, bilənsən" [4].

İftarın ənənəmizdəki yeri və ictimai-sosial əhəmiyyəti. Cəmiyyətimizdəki adətlərin böyük bir qismi dini təmayüllüdür. Qeyd edək ki, tarixən belə adətlər dinin təsdiqindən keçəndən sonra daha da "müqəddəslik" qazanıb, daha möhkəm qorunmuşdur. İftar adəti məhz belə mahiyyətə sahib ənənələrdəndir. Bu adət əslində bir neçə dini məqamı özündə cəmləşdirir. Belə ki, iftar məqsədi ilə dəvət edilən hər bir oruclu iftar süfrəsində həm də evin tanrıqonağı sayılır. Qonağa göstərilən qonaqpərvərlik əslində dini təmayüllü müqəddəs bir iş hesab edilir. Necə ki Hz. Peyğəmbər əleyhissalam buyurur: "Allaha və axirət gününə iman edən kəs qonağına qayğı göstərsin." [5, 80; 6]. Bu baxımdan qonağa ikram etmək həm bir ənənə, həm də dini tövsiyə olduğu üçün iftar vermək daha səvablı bir adət kimi cəmiyyətimizdə dərin kök salmışdır. Qısaca desək, iftar həm adət, həm də dini bir mahiyyətdir, paylaşmaq, ehsan (izzəti-ikram), qardaşlıq və qonağa xidmət göstərmək isə bu mahiyyətin cəmiyyətimizə uyğun geyindirilmiş libasıdır. Bu və ya digər bir çox xüsusiyyəti özündə cəçləşdirən iftar ənənəsinin əslində harada başlayıb harada bitdiyini ayırd etmək çətindir, çünki mahiyyət etibarı ilə bir çox fəziləti özündə cəmləşdirən iftarda dəyərlər bir-birinə qarışaraq cəmiyyətin mədəni kimliyini formalaşdırır.

Digər cəhətdən iftar müsəlmanın iki sevincindən biri hesab edildiyi üçün iftar anı bu sevincin qohum və qonşularla birgə yaşandığı andır. Süfrələrdə fərqli bir sevincin yaşandığı an olan iftar ənənəsi, Ramazan ayının ən mühüm adətlərindən biri olaraq iftar vaxtından bir qədər əvvəl hamılıqla süfrə başında dua vaxtının yaxınlaşdığını dərk etmək və birgə dua etmək birlikdə yaşam, ictimai nizam, həmrəylik və toplum harmoniyası baxımından xüsusi əhəmiyyət kəsb edir. İftar vaxtını mənəvi huzur, təskinlik və ilahi rəhmət duyğuları ilə huzur içində qarşılamaq nə qədər vacibdirsə, həmin anları yaşayan insanların həyat tərzinin formalaşmasında bu qısa

[4] اَللّٰهُمَّ لَكَ صُمْتُ وَبِكَ آمَنْتُ وَعَلَيْكَ تَوَكَّلْتُ وَعَلَى رِزْقِكَ أَفْطَرْتُ

zaman kəsiyi də bir o qədər önəmlidir. Əgər bu zamanın dəyəri dərk edilərsə, qeyd etdiyimiz sevinc halını yaşamağın nə böyük əhəmiyyət kəsb etdiyi ortadadır.

Məhz bu səbəbdən din psixoloqlarının "dini təcrübə" kimi xarakterizə etdikləri, insanın ibadətləri yerinə yetirərkən hiss etdiyi duyğular, əslində ibadətin yaşanması üçün mühüm motivasiya amili hesab olunmaqla birgə . Bu amilin təmin edilməsi eyni zamanda ibadətlərin davamlı şəkildə icrası baxımından da böyük əhəmiyyət daşıyır.

Nəticə. Yuxarıda aparılan təhlillər göstərir ki, Ramazan ayı və onun ayrılmaz tərkib hissəsi olan iftar mədəniyyəti yalnız fərdi ibadət çərçivəsində dəyərləndirilə bilməz; bu anlayış eyni zamanda dərin sosial, mədəni və mənəvi məzmun daşıyır. İftar süfrələri vasitəsilə cəmiyyət daxilində sosial bərabərlik, qarşılıqlı hörmət və yardımlaşma ruhu güclənir, insanlar arasında ünsiyyət və yaxınlıq daha da möhkəmlənir. Bu ənənə zəngin ilə kasıbı, böyük ilə kiçiyi eyni süfrə ətrafında birləşdirərək İslamın əsas prinsiplərindən olan qardaşlıq və bərabərlik ideyasını praktik müstəvidə həyata keçirir.

Digər tərəfdən, iftar ibadətin tamamlanma anı kimi möminin mənəvi dünyasında xüsusi bir sevinc və rahatlıq hissi yaradır. Bu sevinc yalnız fiziki ehtiyacların ödənilməsi ilə bağlı deyil, eyni zamanda ilahi əmrə itaətin və səbrin mükafatlandırılması duyğusundan qaynaqlanır. Hədislərdə də vurğulandığı kimi, iftar anı mömin üçün iki böyük sevincdən biri hesab edilir ki, bu da onun dini-psixoloji əhəmiyyətini daha da artırır.

Eyni zamanda, tarixi və ədəbi mənbələrdən göründüyü kimi, Ramazan və iftar ənənəsi xalqın mədəni yaddaşında mühüm yer tutmuş, müxtəlif şeirlər, xütbələr və vəqf sənədləri vasitəsilə nəsildən-nəslə ötürülmüşdür. Bu baxımdan iftar yalnız dini ritual deyil, həm də milli-mədəni kimliyin formalaşmasında rol oynayan bir ənənədir.

Nəticə etibarilə, iftar mədəniyyəti İslamın mənəvi dəyərlərini gündəlik həyata daşıyan, fərdi ibadəti ictimai məsuliyyətlə birləşdirən və cəmiyyətin həmrəyliyini gücləndirən mühüm bir institut kimi qiymətləndirilməlidir. Bu ənənənin qorunması və gələcək nəsillərə ötürülməsi həm dini, həm də sosial baxımdan böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat:

1. Niyazov A. Azərbaycanın Şimal-Qərbində (Qanıx–Həftəran) dini həyat, elm və mədrəsələr. – Bakı, 2016.
2. Niyazov A. Elmihal. – Bakı, 2021.
3. Şener M. "İftar" // Diyanət İslam Ensiklopediyası. – İstanbul, 2000. – C. 21. – S. 517–518.
4. İbn Macə. Sünən. – Siyam, 45.
5. Buxari M. Səhih əl-Buxari. – Savm, 9; Zəkat, 9; Nikah, 80.
6. Müslim M. Səhih Müslim. – Siyam, 163; Zəkat, 66; İman, 74.
7. Yazır M. H. Hak dini Qur'an dili. – C. 1. – İstanbul, 1942.
8. Zaqatala Tarix və Diyarşünaslıq Muzeyi. – ZKM KП-0045.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300